# BAKI DÖVLƏT UNİVERSİTETİNİN
# MEDİA PROBLEMLƏRİ
# JURNALI



BAKU STATE UNIVERSITY
PROBLEMS OF MEDIA

1(2)
2026

AZƏRBAYCAN RESPUBLİKASININ ELM VƏ TƏHSİL NAZİRLİYİ

**BAKI DÖVLƏT UNİVERSİTETİ**

# BAKI DÖVLƏT UNİVERSİTETİNİN
# MEDİA PROBLEMLƏRİ JURNALI

# JOURNAL OF PROBLEMS OF MEDIA
## OF BAKU STATE UNIVERSITY

**№1 (2), 2026**

**Bakı – 2026**

# ÖMƏR FAİQ NEMANZADƏ: MAARİFÇİLİKDƏN İSTİQLALA GEDƏN YOL

**Aygün ƏZİMOVA**
Baki Dövlət Universiteti
ORCID:0000-0002-8652-8249
e-mail:aygunazim@mail.ru

**Xülasə**

Bu gün mətbuatımızı araşdırmaqla öz milli kimliyimizi öyrənir, formalaşdırır, yaşanan tarixi həqiqətlərə aydınlıq gətirir, tarixi təcrübəmizdən yararlanmaqla müəyyən nəticələr çıxarmağa çalışırıq.

Məqalədə Azərbaycan ictimai-siyasi fikir tarixində mühüm yer tutan maarifçi, publisist və ictimai xadim Ömər Faiq Nemanzadənin XX əsrin əvvəllərində milli oyanış, azadlıq ideyaları və maarifçilik hərəkatının formalaşmasında roluna qiymət verilir.

Tədqiqatda ədibin müxtəlif mətbuat orqanlarında dərc olunan məqalələri milli kimlik və istiqlal düşüncəsinin öyrənilməsi üçün mühüm mənbə kimi dəyərləndirilir.

Xalqın tərəqqisini milliləşməkdə və milli birlikdə görən Ömər Faiqin milli istiqlal ideyalarının yayılmasına, azərbaycançılıq məfkurəsinin möhkəmlənməsinə və demokratik düşüncənin formalaşmasına mühüm töhfə vermiş “Azərbaycan” qəzetindəki mətbu irsi yaradıcılığının daha sistemli və məqsədyönlü xarakter aldığı dövr kimi qiymətləndirrilir. Və bu gün də aktuallığını qoruyur və Azərbaycan publisistika tarixinin qiymətli nümunələrindən hesab olunur.

**Açar sözlər:** *mətbuat, publisistika, istiqlal, milli kimlik, dövlətçilik, milli ideologiya*

## ОМЕР ФАИГ НЕМАНЗАДЕ: ПУТЬ ОТ ПРОСВЕТИТЕЛЬСТВА К НЕЗАВИСИМОСТИ

**Айгюн АЗИМОВА**
Бакинский Государственный Университет
ORCID:0000-0002-8652-8249
e-mail:aygunazim@mail.ru

**Аннотация**

Изучая сегодня национальную прессу, мы познаём и формируем свою национальную идентичность, вносим ясность в исторические реалии и стремимся извлечь определённые выводы из нашего исторического опыта.

В статье даётся оценка роли выдающегося просветителя, публициста и общественного деятеля Омер Фаиг Неманзаде в формировании национального пробуждения, распространении идей свободы и становлении просветительского движения в Азербайджане в начале XX века.

В исследовании статьи автора, опубликованные в различных печатных органах, рассматриваются как важные источники для изучения национальной идентичности и идеи независимости. Его публицистическое наследие в газете Azərbaycan, сыгравшей значительную роль в распространении идей национальной независимости, укреплении идеологии азербайджанства и формировании демократического мышления, оценивается как этап, на котором его творчество приобрело более системный и целенаправленный характер.

Отмечается, что Неманзаде видел прогресс народа в национальном самоопределении и национальном единстве. Его идеи сохраняют актуальность и в наши дни, представляя собой ценные образцы в истории азербайджанской публицистики.

**Ключевые слова:** *пресса, публицистика, независимость, национальная идентичность, государственность, национальная идеология.*

## OMER FAIGH NEMANZADE: THE PATH FROM ENLIGHTENMENT TO INDEPENDENCE

**Aygun AZIMOVA**
Baku State University
ORCID:0000-0002-8652-8249
e-mail:aygunazim@mail.ru

### Abstract

The study of our national press today enables us to explore and shape our national identity, to clarify historical realities, and to draw meaningful conclusions from our historical experience.

This article evaluates the role of the prominent enlightener, publicist, and public figure Ömər Faiq Nemanzadə in the formation of national awakening, the dissemination of ideas of freedom, and the development of the enlightenment movement in Azerbaijan at the beginning of the twentieth century.

The research considers the author's articles published in various press outlets as significant sources for the study of national identity and the concept of independence. His journalistic legacy in the newspaper Azərbaycan—which played an essential role in promoting the ideas of national independence, strengthening the ideology of Azerbaijanism, and fostering democratic thought—represents a period in which his intellectual activity acquired a more systematic and purposeful character.

The article argues that Nemanzadə viewed the progress of the people in terms of nationalization and national unity, and that his contributions remain relevant today, constituting valuable examples in the history of Azerbaijani journalism.

**Keywords:** *press, journalism, independence, national identity, statehood, national ideology.*

## Giriş

Bir milliyyətin millət halına keçməsi ümumi şüur və birgə iradənin təsisinə bağlıdır. Bu isə yalnız "ictimai hafizə" vəzifəsini görən "orqanın (üzvün)" təşəkkülü ilə mümkün olur. Bu "orqan" müxtəlif zamanlara, ictimai quruluşlara görə dəyişir. Feodalizm sisteminin süqutu ilə "şəhərlərdə yetişən ziyalı zümrə şüurun tərbiyə və iradəsini təmsil edən bir sinif halına gəldi. Bu sinfin ən böyük aləti mətbuatdır" (M.B.Məhəmmədzadə)

Bu ziyalı zümrənin nümayəndələri–M.F. Axundov, H. Zərdabi, Ə. Ağaoğlu, C. Məmmədquluzadə, Ə. Hüseynzadə, Ö.F. Nemanzadə və b. yaxşı anlayırdılar ki, Azərbaycan xalqının çağdaş dünya nizamında özünə layiqli yer tutması üçün maarifin, elmin, milli özünüdərkin, milli şüurun və milli təəssüb hissinin yüksəlişi başlıca şərtlərdəndir.

Bu gün mətbuatımızı araşdırmaqla öz milli kimliyimizi öyrənir, formalaşdırır, yaşanan tarixi həqiqətlərə aydınlıq gətirir, tarixi təcrübəmizdən yararlanmaqla müəyyən nəticələr çıxarmağa çalışırıq.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin milli mətbuatın 150 illik yubileyinin keçirilməsi haqqında sərəncamında deyilir:

"Əkinçi"dən sonra onun ənənələrini davam etdirən çoxsaylı nəşrlər dövrün vətənpərvər ziyalılarını, maarifçilərini eyni məslək ətrafında birləşdirərək, milli oyanış prosesinin aparıcı vasitələrindən biri kimi, ümummilli məqsədlərin gerçəkləşməsində mühüm rol oynamışlar.

Bu gün mediamız Azərbaycanın tərəqqisinin və müasir cəmiyyət quruculuğu prosesinin fəal iştirakçısı olaraq, beynəlxalq əlaqələrini və qlobal informasiya məkanında təsir imkanlarını genişləndirmiş, rəqabət qabiliyyətini artırmışdır. Lakin dünya nizamının dəyişikliklərə məruz qaldığı, siyasi proseslərin intensivləşdiyi, habelə yeni fəaliyyət prinsiplərinin bərqərar olduğu müasir dövr Azərbaycan mediası qarşısında da yeni vəzifələr müəyyənləşdirir. ...media müasir tendensiyaları nəzərə almaqla Azərbaycanın dövlət maraqlarını həmişə uca tutmalı, ölkəmizin müasir beynəlxalq münasibətlər sistemində yeri və rolu, həyatımızda baş verən pozitiv dəyişikliklər ilə bağlı ictimaiyyətimizin məlumatlandırılması sahəsində daha fəal olmalıdır". (1)

XIX əsrin ikinci yarısında H.Zərdabi "Əkinçi" qəzetini (1875–1877) yaratmaqla Azərbaycanda yeni bir mərhələnin başlanğıcını qoydu. Çar Rusiyasının hakimiyyəti altındakı türk və müsəlman toplumlarını maarifləndirməyi qarşılarına məqsəd qoyan Azərbaycan ziyalıları mənsub olduqları xalqın inkişafına, maarif və mədəniyyətinin tərəqqisinə çalışır, geriliyin, zülmün, ədalətsizliyin, istismarın məhv edilməsi üşün mübarizə aparırdılar. "Millətlərin dərəceyi-tərəqqiləri məhz bir şeylə ölçülür ki, o da ancaq mətbuatlarıdır" söyləyən kəsərli qələm sahibi, böyük publisist, Ömər Faiq Nemanzadə də müasirləri kimi özünün maarifçi və demokratik ideyalarını məhz mətbuat vasitəsilə geniş xalq kütləsinə deyə bilirdi.

Azərbaycançılıq ideologiyasının dərin köklərinə yiyələnmiş Ö.F. Nemanzadə tarixin inkişaf prosesini dərindən dərk etməklə yanaşı, publisist yaradıcılığı ilə mənsub olduğu xalqın inkişafına, milli maraqlarına kömək etmiş, geriliyə, zülmə, ədalətsizliyə, istismara qarşı mübarizə aparmışdır. Ədib millətinin öz hüquqları uğrunda mübarizəsinin önündə gedənlərdən biri kimi publisistikasında dövrün ictimai-siyasi tarixi gerçəklikləri kontekstində, müsəlman aləminin bütün qaranlıq mühitinə aydınlıq gətirmiş, millətinin düçar olduğu bütün fəlakətlərdən qurtuluş yolunu göstərməyə çalışmışdır.

Ö. F. Nemanzadənin yazılarının Azərbaycan Xalq Cümhuriyyəti dövrünün ideoloji əsaslarını əks etdirmək baxımından müasir dövrdə dövlətçilik ənənələrinin, milli kimlik və istiqlal düşüncəsinin öyrənilməsi üçün də mühüm mənbədir.

**"Şərqi-rus"dan başlanan yol**

Ö. F. Nemanzadə "Şərqi-Rus"a qədər Şəki, Şamaxı və Gəncədə dünyəvi elmləri tədris etməklə xalqın maarif və mədəni həyatında canlanma yaradır, yeni tipli məktəblərin açılmasında, təhsillə bağlı problemlərin həllində böyük rol oynayır. Pedaqoji fəaliyyəti dövründə "Müəllim Nemanzadə" imzası ilə "Tərcüman" qəzetinə məktublar göndərən Ömər Faiq müsəlmanların elmdən, təhsildən uzaq qalmalarını, xalqa rəhbər olacaq dövlətlilərin, bəylərin maarifə, millətə olan hümmətlərinin azlığından gileylənir: "Maarifimiz də o dərəcədədir ki, ...Qori darülmüəlliminə bizdən ancaq bir müsəlman var... Bu səbəbdən camelərimiz viran, məktəblərimiz pərişan, halımız yamandır" (8, s. 34).

Qəzetçilik fəaliyyətinə Tiflisdə "Şərqi-Rus"da başlayan istedadlı və kəsərli qələm sahibi bu ağır, çətin və daşlı-kəsəkli yolda ideya, mövzu və forma xüsusiyyətləri ilə zəngin yaradıcılıq axtarışlarına imza atır. Bu yaradıcılıq arenasında biz onu inqilabi-demokratik ideyaları ilə xalqına, millətinə bağlı bir vətəndaş ziyalı, milli kimliyin təəssübkeş müdafiəçisi, mənəvi dəyərlərin qoruyucusu kimi görürük.

Mətbuatı tribunaya çevirən Ö.F.Nemanzadə "Şərqi-Rus" qəzetində "Dərdimiz və dərmanımız" (1903, N3,4,5), "Dilimiz və imlamız" (1904, N40), "Nə üçün haqqımızı istəmiriz" (1904, N5), "Qəbirdən xortlayan adam" (1904, N 79,81), "Günah kimdə?" (1904, N88, 91) və b. məqalələrində məhkun millətinin üzləşdiyi ehtiyaclardan, dərdlərdən, bütövlükdə cəmiyyətin qarşılaşdığı köklü nöqsanlardan ürək yanğısı ilə söhbət açır, öz siyasi düşüncə tərzinin məhsulu olan ilk publisistik nümunələrini ortaya qoyur. "Biz də vaxta görə çalışaq" (1904, N147, 148, 152) sərlövhəli silsilə məqaləsində yazırdı: "...zaman dəyişir, dünya dəyişir, hər şey dəyişir, hər millət dəyişir, hər zərrə dəyişir...İnsaf və mürvətmidir ki, bizlər də hər şeydən də dışarı olaq? Dəyişməli!" (8, s.76).

Ömər Faiq xalqı, milləti göz görə-görə təhlükələrə, səfalətlərə sürükləyən köhnə adətlərə, cahil fikirlərə, əməllərə qarşı çıxır, yoxluqda üzülən xalqını zamana görə dəyişməyə, ümumi hüquqlardan istifadəyə çağırır. Millətin nicat yolunu inkişafda, elmdə, təhsildə, tərəqqidə görən ədib yazırdı: "Dəyişməliyik. Və illa özgələr bizləri bütün özgə yolda dəyişdirib" ayaqlar aitında əzdirib yox edərlər...Xülasə, bizi adam edəcək... mədəniyyətə daxil edəcək bir vasitə...məktəblər, mədrəsələr və mətbuatdır" (8, s.77-78).

Mətbuatı millətin savadlanması və maariflənməsi yolunda ən təsirli vasitə hesab edən Ö.F.Nemanzadə mətbəə almaq üçün çox səy göstərir və nəhayət, "Şərqi-Rus qəzetinin mətbəəsini əldə edir. Ədibin "Qeyrət" mətbəəsinin fəaliyyəti haqqında, xüsusilə Azərbaycanda mətbəə və mətbuat tarixi barədə ilk əsər – "Nəşri-asarə dəvət" (əsərlər nəşrinə dəvət) də məhz bu mətbəədə çap olunur. "...Bu gün ancaq hər qüvvətin, hər xahişin, hər fikrin anası və kökü olan" maarif və mətbuatı güclü silaha bənzədir, millətin qurtuluş yolunu da onda görür, haqlı olaraq mətbuatı həm də ictimai fikrin tribunası adlandırır.

Ömər Faiq "ümmətinin hüququnu mühafizə etmək, hürr və müstəqil yaşamaq, özgələrə boyun əyməmək" yolunda ciddi mətbuatın əhəmiyyətini qeyd edir. O, hər kəsi nəşrlərə dəvət edir, millətin ətalət, cəhalət və elmsizlikdən qurtulmanın çıxış yolunu mətbəələrin sayının artmasında görür: "Əks halda, mətbuatı yox və ya az olan millətlərin mədəniyyət və gücləri də yox hökmündədir."

Mətbuat orqanlarının sayının azlığı dövrün digər ziyalıları kimi Ömər Faiqi də çox narahat edirdi. C. Məmmədquluzadə, Ü. Hacıbəyli, M.Ə. Rəsulzadə, Ə. Ağaoğlu və b. bu fikirdə idilər ki, mətbu orqanların sayı artdıqca qəzetlər arasında birliklə bərabər, yeni fikirlər, yeni ideyalar, yeni düşüncələr də formalaşar ki, bu da millətin tərəqqisinə xidmət etmiş olar.

**Mətbu fəaliyyətin yeni mərhələsi**

Ömər Faiq Nemanzadənin publisistikası məkan, zaman, mövzu, ideya və problem baxımından geniş və əhatəlidir. O, "Şərqi-Rus", "Həyat", "Molla Nəsrəddin", "Füyuzat", "İrşad", "Tazə Həyat", "Tərcüman", "Tərəqqi", "İqbal", "Yeni İqbal", "Qardaş Köməyi", "Açıq Söz" və "Azərbaycan" kimi mətbu orqanlarda bütün fəaliyyətini, elmini, biliyini, istedad və qabiliyyətini, bütövlükdə bütün həyatını vətənin, millətin tərəqqisi yoluna həsr etdi.

1906-cı ildə nəşr olunan "Molla Nəsrəddin" jurnalı Ö. F. Nemanzadə üçün böyük məktəb rolunu oynayır. Məsləkdaşı Cəlil Məmmədquluzadə ilə "Qeyrət" mətbəəsində nəşr etdikləri bu jurnal vasitəsilə ictimai quruluşun ədalətsizliyini, rus çarizminin yerli əhaliyə qarşı apardığı ayrı-seçkilik siyasətini, din pərdəsi arxasında milləti cəhalətə sürükləyən "din xadimləri"ni, qadın azadlığını buxovlayan qüvvələri, rüşvətxorluğu, dilimizə xor baxanları, millətin gələcək taleyinə biganə qalan intellektualları tənqid obyektinə çevirirdi.

Ədibin "Molla Nəsrəddin"də dərc olunmuş "Qayırma hədislər" (1907, №16), "Xortdana məktub" (1907, №19), "Bakı dəryası" (1907, №28), "Məktəb" (1907, №1), "Bakının əlacı" (1907, №31), "Allaha rüşvət" (1908, №8), "Pişik" (1910, №32) və bu kimi digər yazılarında başlıca olaraq hakim dairələrin zülmkarlığı, cəmiyyətdə kök salmış sosial problemlər, ana dili, elm və təhsil, qadın azadlığı məsələləri onun tənqid hədəfləri idi.

Ömər Faiq istər "Molla Nəsrəddin"də, istərsə də digər mətbu orqanlarda tənqid etməklə kifayətlənmir, siyasi proseslərə də nüfuz edir, istiqlal düşüncələrinə, azərbaycançılıq ideologiyasından qaynaqlanan milli mənlik şüurunun formalaşmasına, milli özünüdərkə, xalqın azadlıq uğrunda mübarizəsinə, siyasi hüquqlarının əldə olunmasına və düzgün yola istiqamətlənməsinə böyük yol açırdı.

Azərbaycan zaman-zaman ictimai-siyasi tufanlarla qarşılaşsa da, vəziyyətimiz heç vaxt XX əsrin onilliklərində olduğu qədər məşəqqətli, faciəli olmamışdır (Ş. Hüseynov). Belə bir dövrün aktual mövzularını qəzet səhifələrində gündəmə gətirən böyük ədibin daşnakların imperiya qüvvələri ilə əlbirliyinə, erməni millətçilərinin müxtəlif hiylə və bəhanələrlə torpaqlarımıza sahib çıxmaq üçün törətdikləri qətliam və qırğınlara münasibəti, bugünümüzün reallıqları və müasirlik baxımından böyük əhəmiyyət kəsb edir. Onun bu mövzuda 1905–1907-ci illər mətbu çıxışları, ermənilərin "Böyük Ermənistan" yaratmaq xülyalarının qarşısında özümüzü mühafizə və müdafiəyə hazır olmağa çağırışı, əsrin sonunda Qarabağda və Qərbi Azərbaycanda baş vermiş və hələ də qalıqları təmizlənməkdə olan böyük faciələrin dərin köklərini öyrənmək, bu siyasətə

son qoymaq üçün nə etmək lazım olduğunu bir jurnalist və publisist kimi uzaqgörənliyi baxımından da maraq doğurur.

XX əsrin əvvəlləri və sonuna ayna tutan Ömər Faiq ermənilərin Naxçıvan, İrəvan və Qarabağ mahallarında qurduqları tələləri, polis və qoşunun əli ilə törətdikləri xainlikləri, erməni-müsəlman toqquşmalarını hökümət müftilərinin və onlara aldanan camaatın avamlığını ürək ağrısı ilə dilə gətirir: "Məgər nə dərəcədə bifəhm və safdil olmuşuq ki, ermənilərin İrəvan və Qarabağ səmtlərində hər cür hazırlaşmaqlarını görə-görə, hər cürə fitnə-fəsadlarını hiss edə-edə, hər növ xainanə hərəkətlərini qana-qana lazımi yolda müdafiə etməyi yadımıza belə gətirmədik" ("İrşad", 1906, №183).

"Nə etməliyik?" məqaləsində ifadə olunan bütün fikir və mülahizələr – 1905–1907-ci illər erməni-müsəlman qarşıdurmasını yaradan səbəblər, rus generallarının ermənilərə havadarlığı və rus məmurlarının bu qarşıdurmadakı məqsədləri və digər məsələlər analoji şəkildə XX əsrin 80–90-cı illərində özünü yenidən göstərdi: "...ermənilər ruslar ilə bir olub bizi İrəvan, Qarabağ səmtlərində zəiflətdikdən sonra... Rusiyanın inqilab və zəfini gözləyəcəklər. Və birinci fürsətdə Rusiyadan qabaqca "avtonomiya" istəyib, yavaş-yavaş özlərinə "Ermənistan" hazırlayacaqlar."

Elə buradaca qeyd edək ki, klassik publisistikamızın bu tematika ətrafındakı yazılarının aşkarlanmasına qadağa qoyan sovet senzura sistemi bizi ermənilərin əsl simasını anlamağa imkan verməmişdir.

Bu siyasi oyunları öncədən duyan, böyük demokratik düşüncə sahibi olan Ömər Faiq düşmənin qabağına düşmən kimi çıxmaqla öz hüquqlarımızı mühafizə etməyə, qüvvətli bir milli cəmiyyət qurmaqla xalqı birliyə və ayıq-sayıq olmağa çağırırdı.

Biz tarixə nəzər salsaq görərik ki, ermənilərin bu siyasi planı ilk nəticəsini Rusiyanın havadarlığı ilə 1923-cü ildə DQMV-ni yaratmaqla reallaşdırdı. Lakin 1991-ci ildə ikinci dəfə müstəqillik əldə etdikdən sonra və 44 günlük müharibədə Ömər Faiqin milli birliyə və düşmənin qabağına düşmən kimi çıxmaq çağırışı reallaşdı. Bir əsrdən sonra "Nə etməliyik?" sualını Zəfər tariximizlə Prezident, Ali Baş Komandanımız cənab İlham Əliyev və Azərbaycanın mərd oğulları bu siyasəti iflasa uğradaraq Qarabağı öz azadlığına qovuşdurmaqla cavablandırdılar.

Ömər Faiq məqalələrində dövrün ziyalılarına üz tutaraq onları millətini tanımağa, onun namusunu, diriliyini, mənfəətini öz namusu, öz mənfəəti kimi bilməyə səsləyir. Ədib "dostluq" xəncəri ilə dəfələrlə yaralanmağımıza baxmayaraq hələ də millətimizin ruhunda köklənmiş, milli əxlaq yerini tutmuş və möhkəmlənmiş itaətkarlığı qamçılayır, bunu qabalığımız, quru cahilliyimiz

kimi təqdim etməklə milli mənfəətimizə endirilən balta adlandırır: "Vaxtdır ki, biz də bu həqiqətləri qanıb yaşamağa layiq olduğumuzu, millətimizin şərəfini, dinimizin "səlamət"liyini quru söz, lovğalıq ilə yox, əməlimizlə, köməyimizlə göstərək" ("Açıq söz", 10 yanvar 1917).

**Ədibin milli kimlik konsepsiyası**

"Yatmışları oyadan, xalqı xalqın özünə tanıdan" (6) ədibin milli kimliyimizlə bağlı məqalələri təkcə ötən əsrin əvvəlləri üçün deyil, bugünkü qloballaşma, informasiya axını və sürətli sosial dəyişikliklər şəraitində dövrün gerçəklikləri ilə səsləşən düşüncə sistemi kimi aktuallığını saxlayır. "Qardaş köməyi" dərgisində dərc olunan maraqlı, bu günümüz üçün aktual olan yazılardan biri olan "Bən kiməm?" (7) məqaləsi hər bir oxucuya ünvanlanmış və hər kəsi bu sual qarsısında düşünməyə məcbur edən bir konsepsiyadır. Ömər Faiqə görə kiçik, məhkum millətlər öz qanları bahasına varlıqlarını, hüquqlarını qoruyub saxladıqları halda, biz özümüz tanımamazlıq bəlasına düçar olmuşuq. İnsanın öz soy və millətini tanımaması soyundan-kökündən uzaqlaşmaya gətirib çıxarır ki, bu da ən böyük günah, milləti üçün silinməz ləkədir. Bu tanımamazlığı qara yaraya, daha acılı və daha zəhərli taun çibanına bənzədən ədib biri qızılbaş, digəri "ac tat", başqa birisi "şiə", "sünni", "babi", "persiyan" adlandırılan və Qərbin məqsədli şəkildə parçalamağa çalışdığı türk millətinə üz tutur:

"...Niyə sana: "Kimsən?" dedikləri vəqt həqiqi cavabında aciz qalıyorsan? Niyə sadəcə deyə bilmiyorsan ki: Bən türkəm. Niyə bilmiyorsan ki, şiəlikdən, sünnilikdən, babilikdən də əvvəl sən türk idin. İndi də türksən və bundan sonra da türk qalacaqsan. Sənin bu türklüyünə nə şiəlik, nə babilik və nə də dinsizlik mane ola bilməz.

Sən, ey türk, nə əqidədə, nə məsləkdə olursan ol, həmişə türksən!

Sən gərək biləsən ki, dünyada hələ şiə, sünni, babi, şeyx adları yox ikən, sən var idin! " (7, s.42).

Bu gün Türk dünyasını sünni, şiə adıyla parçalayan Qərbin Şərqdə apardığı "Parçala, hökm sür" siyasətinin mahiyyəti də məhz budur!

Məqalədən göründüyü kimi, milli məslək və milli əqidə daşıyıcısı olan Ö.F.Nemanzadə hələ ötən əsrin əvvəllərində müsəlmanların "islam ümmətindən türk millətinə çevrilməsi" kimi böyük bir hərəkatın öncüllərindən olmuş, türkçülük məfkurəsini işləyib hazırlayan, ona elmi-siyasi səciyyə verən ziyalılardan biri kimi mətbu irsində geniş əməli fəaliyyət göstərən milli istiqlal mücahidlərindən biri kimi xalqı milli intibaha, milli oyanışa səsləmiş, millətin qurtuluş yollarını göstərmişdir.

XXI əsrin əvvəlləri Türk birliyi ideyasının reallaşması, türk xalqlarının bir-birlərini daha yaxından tanıması, ortaq köklərə qayıdış —Türk Dövlətləri

Təşkilatının yaranması, Türk birliyinin tələb etdiyi ən ümdə məsələlərdən biri olan ortaq əlifba, ortaq dil məsələlərinin də gündəmə gəlməsi Ömər Faiq ideyalarının və arzularının gerçəkləşməsidir.

**Görkəmli publisist "Azərbaycan" qəzetində**

Ömər Faiq Nemanzadənin publisistikasının "Azərbaycan" (1918-1920) mərhələsi onun vətəninə, millətinə olan sevgisinin və yeni qurulmuş Cümhuriyyətin dövlətçilik siyasətinə və fəaliyyətinə vətəndaşlıq mövqeyinin təzahürü baxımından əhəmiyyətlidir.

Bütün həyatını millətinin həqiqi azadlığı, istiqlaliyyəti, türklüyün birliyi, milli dilinin qorunması və təmizliyi, azad və müstəqil dövlət uğrunda mübarizəyə həsr edən Ö. F. Nemanzadənin həyatının çətinliklər və iztirablarla dolu bir dövründə "Azərbaycan" qəzeti ilə sıx əməkdaşlıq etmiş, aparıcı yazarlarından biri kimi bütün proseslərə öz münasibətini bildirmişdir.

Qafqazda yeni yaranmış ilk müstəqil və güclü bir Türk dövlətinin mövcudiyyətini gözü götürməyənlərə qarşı yönəlmiş cəsarətli yazıları onun necə böyük istedada, dərin elmi-nəzəri baxışlara, siyasi təfəkkürə, əhatəli biliyə malik olduğunu təsdiqləyir.

1918-1920-ci illərdə Ö.F.Nemanzadə siyasi-ideoloji baxışlarına, Axısqa türklərinin Türkiyə Hökumətinə rəğbət bəsləməsində roluna və eləcə də Qafqazda məzlum türklərin siyasi hüquqlarının müdafiəsi uğrunda mübarizəsinə görə gürcü hökuməti və menşeviklər tərəfindən üç dəfə həbsə məruz qalır ki, bu da "Azərbaycan" qəzetinin fəaliyyəti dövrünə təsadüf edir.

Bütün bunlarla bərabər, Ömər Faiq qəzetlə əməkdaşlığını davam etdirir. Ədibin "Paylaşmaq istəyirlər" (№158,1919), "Böhtanlarla böyük işlər görülür" (№161,1919), "Axıska fəlakəti şiddətilə davam edir" (№162,1919), "Alçaq siyasət" (№164,1919), "Möhkəm idarə möhkəm əxlaqlı istər" (№169,1919), "Ümidsizlik zəiflik nişanəsidir" (№187,1919)„ "Nədir bu naxoşluq?" (№188,1919), "Hazır ol!" (№194,1919), "Xanıstan-Ermənistan" (N195,1919), "Aldanmayınız!" (№208,1919), "Sağ ayağımız da kəsilir" (№214,1919), "İşlərimizdə hərcü-mərclik" (№220,1919), "Felyeton: Məcdüssəltənə" (№228,1919), "Şəhərimiz idarəsizliyi" (№245,1919), "Milliləşmək" (№327; №328; №330 1919) silsilə məqalələri onun milli düşüncələrinin və yeni qurulmuş xalq cümhuriyyətinin gələcək fəaliyyətinə publisist yanaşmalarının məhsuludur.

Xalq Cümhuriyyəti kimi müstəqil bir dövlət yaratmış Azərbaycanın demokratik dövlət quruculuğu prosesində islahatlarla bərabər, qarşıda duran böyük çətinliklər də özünü göstərirdi.

Ö.F.Nemanzadə "Sağ ayağımız da kəsilir" (№214,1919), başlıqlı məqaləsində sosial, siyasi və iqtisadi problemlərin həllinə çalışan gənc bir hökumətin

ali məqsədini ideal dövlət modeli yaratmaq olduğunu qeyd edən Ömər Faiq gənc Azərbaycan hökumətinin yüksək əxlaqi keyfiyyətini –sülh tərəfdaşlığını sahəsində atdığı addımlarda görür: "O (hökumət-A.Əzimova) istiyor ki, təmiz əllərini qana bulaşdırmasın, tazə hərəkətə gələn qollarını insaniyyətə xidmətə alışdırsın" (2, s.242).

"Tazə doğan hökumət"-in xalqa ədalət, hürriyyət və azadlıq verməsini, insani fikirlərlə indiyədək hər cür təcavüzlərə, həqarətlərə hələ də göz yummasının müsbət və mənfi cəhətlərini analiz edən Ömər Faiq bunun bir tərəfdən də itaətsizliyə, məmləkətin, istiqlalın gələcəyi üçün böyük bir təhlükəyə yol açdığı barədə xəbərdarlıq edir. Gürcüstandan, Dağıstandan, Ermənistandan və Rusiyadan öz hökumətlərindən müxtəlif səbəblərdən qaçan menşevik, Denikin, daşnak, imperialist, kommunist-bolşevik kimi qarətkarların, oğruların—hər kəsin gözəl və hürr Azərbaycan paytaxtına toplanmasını gələcək üçün necə bir fəlakətli uğurum yaradacağından xəbər verən uzaqgörən ədib hökuməti siyasi ayıqlığa çağırır: "Tədbirsiz, səy və qüvvətsiz arxayın olmaq, hər şeyə razı olmaqdır" (5, s.52).

Rusiyanın və imperialist dövlətlərin Cənubi Qafqazda apardıqları "Parçalamaq" siyasətini gözəl anlayan uzaqgörən publisist Türkiyə ilə rabitənin əbədi kəsilməsinin və Bakı-Culfa dəmiryolu planının qarşısının alınmasının siyasi məqsəd və məramını şərh edir. Kars, Ərdəhan, Ovləti, Qağızman, Sürməli mahallarının erməni qaçqınlarını yerləşdirmək bəhanəsilə güc və zülmlə müsəlmanların əlindən alınıb ermənilərə verilməsini uzun illərin planı olduğunu və bu türk yerlərinə sahib çıxanlara cavabsız qalmağımızı qınayır və bunun istiqlalımız üçün gələcək böyük təhlükələrə yol açacağını söyləyir: "Zəngəzuru almaqla bizim sağ ayağımızı da kəsiyorlar...

Əcəba! Bu fəlakətlərə səbir və bu səbrlə hər şeyə razı olacaqmı yız?" (5,səh.53).

Ömər Faiqin narahatlığı əbəs deyildi. Çox keçmir ki, sovet hakimiyyəti Cənubi Qafqazda möhkəmlənir, bununla da həmin ərazinin inzibati-siyasi xəritəsində dəyişikliklər həyata keçirməyə başlayır. 1921-ci ildə Ermənistan SSR və Azərbaycan SSR arasındakı razılaşmaya əsasən tarixən Azərbaycan torpağı olan Zəngəzur qəzası Moskva və Qars müqavilələri əsasında 2 yerə bölünür ki, bu fəlakəti başlanğıcda ədib yeni hökumətə, eləcə də xalqa qəzet vasitəsilə xatırlatmışdır. Necə ki, ikiyə parçalanmış Azərbaycan, ikiyə bölünmüş Zəngəzur. Fərqli zamanın eyni dərdləri, eyni problemləri.

Ömər Faiq öz fikirlərini "Paylaşmaq istəyirlər" (N158, 1919) məqaləsində davam etdirir, siyasi və geosiyasi məsələni–qonşu dövlətlərin "türk-islam kütleyi-müəzziməsini" öz aralarında paylaşmaq istəklərini yenidən gündəmə

gətirir. Ədib göstərir ki, Axıska, Axalkələk, Qars, Batum kimi bölgələrdə yaşayan müsəlman-türk əhalisi silah, zorakılıq gücü ilə sıxışdırılmaqla öz yer və yurdlarından didərgin salınır. Ö. Faiq Gürcüstan və Ermənistanın öz sərhədlərini genişləndirmək məqsədini "paylaşmaq-parçalamaq, zəiflətmək" siyasəti ilə həyata keçirdiklərini bir siyasətçi-publisist düşüncəsi ilə ortaya qoyur.

"Gürcü və erməni qəzetləri Qars hökumətinin dağılmasından və oraların tezliklə gürcü və ermənilərin əllərinə keçəcəyindən bəhs edib şimdidən izhari-şadmani edirlər. (şadlıqlarını büruzə verirlər).

Biz də hələ fürsət varkən izhari-qeyrət və həmiyyət göstərib , hüquqi-milliyəmizin müdafeyi–biamanı (amansız müdafiəçiisi) olacağımızı elan etməliyiz" ( 3,s.276).

Göründüyü kimi Ö.F.Nemanzadə publisistikasında özünü göstərən bu həqiqətlər, gerçəklər bugünkü günümüzün reallıqlarıdır ki, aktuallığını hələ də saxlayır.

"Azərbaycan" qəzetində "Ümid var" imzası ilə dərc edilən "Hazır ol" (N194, 1919) məqaləsi Ömər Faiqin bəşəriyyəti oyanışa, maariflənməyə, azadlıq və ədalət uğrunda mübarizəyə, qardaşlığa, səadətə, bütövlükdə insanlığa, bəşəri dəyərlərə ünvanlanmış humanist bir çağırışı kimi qiymətləndirə bilərik.

"Millətim növ'i-bəşərdir, vətənim ruyi-zəmin" söyləyən ədib bundan daha həqiqi bir iman, daha ülvi bir əməl, daha ilahi bir qayə və məqsəd olarmı sualını özü cavablandıraraq bütün insanları qardaş, dünyanı da vətən adlandırır. Humanist və maarifçi dünyagörüşə malik ədib özünü bəşəriyyətin bir üzvü adlandırmaqla, millətlər arasında özünü göstərən dini, irqi və milli ayrı-seçkiliyə qarşı çıxır, bu fərqlərə görə insanların bölünməsini faciələrə yol açdığını vurğulayır: "...qardaşlığa yaraşmayan ortadakı bu canavarlıq, bu yırtıcılıq, bu heyvanlıq, bu qəhr və zülmlər nə?" ( 4,s.54).

Ömər Faiq publisistikasının ana xəttini təşkil edən milli kimlik məsələsi bu məqalənin də əsas qayəsini təşkil edir. Ədibin "Ey azərbaycanlı, ey türk!" müraciəti Böyük Türk dünyasına, Türk birliyinə ünvanlanan çağırış idi. Gənc Azərbaycan dövlətinin əlindəki istiqlal nemətini qapmaq istəyənlərə qarşı bütün mövcudiyyətilə hazır olmağa çağırır. Sonda azərbaycanlıları haqq və ədalət uğrunda mübarizəyə çağıran ədibin fikirləri müasir dövrümüzün də gerçəkliyini özündə əks etdirir: "...Burasını da eyi bil ki, sən özgəsini, özgə torpağını qurtarmayırsan; özünü, öz evini, öz balalarını qurtarırsan. Çünki Vətən-sən, sən-vətənsən!" (4, s.57).

Burada Ömər Faiqin "Vətən" anlayışı daha geniş bir anlamı ifadə edir. Bu düçüncəyə görə "Vətən" ədibin daxilində, mənəviyyatında daşıdığı mənəvi borc

və onun qarşısında daşıdığı məsuliyyətdir. Onun vətəndaşlıq mövqeyi, dəyərlərə verdiyi qiymət, bu günümüz üçün də əhəmiyyət daşıyan mənəvi xəzinədir.

Bir əsr sonra "Vətən-sən, sən-Vətənsən" ifadəsi 44 günlük Vətən müharibəsində Qarabağ savaşının da fəlsəfi və mənəvi əsasını özündə əks etdirdi. Öz evini, öz vətənini qorumaqla özlərini Vətənin bir parçası, hər daşını başdaşı edən Azərbaycanın mərd oğullarının sayəsində işğal olunmuş ərazilərimiz düşmən tapdağından azad olundu.

Millətin və onun milli kimlik şüurunun formalaşmasında Ö.F.Nemanzadə publisistikasının rolu böyük olmuşdur. Milli kimlik, milli dil və özünüdərk problemlərini özündə əks etdirən "Milliləşmək" (N327;328;N330) silsilə məqalələri öz dövrü və bu günümüz üçün çox əhəmiyyətlidir.

Klassiklərimiz də dili hər millətin mövcudluq faktoru kimi qiymətləndirmişlər. Dilsiz bir millət məhvə məhkumdur. Məqalədə də qeyd edilir ki, tarixin müxtəlif dönəmlərində hər cəmiyyət, hər bir fərd ənənəsindən, iman və etiqadından az-çox əl çəkdiyi halda, milli dilindən əsla və əsla vaz keçməmişdir. Bir millətin ədəbiyyata malik dilini o millətin ruhu, mövcudiyyətini milliləşmənin vacib şərtlərindən sayan Ömər Faiq yazır: "Dili kəsilməyən millətin vücudu kəsiləmməz, ədəbiyyatı yaşayan millət heç vaxt ölməz" (8, s.276).

Dili millətin mənəvi siması, onu yaşadan əsas amil, milliləşmənin təməl şərtlərindən biri hesab edən ədib paralel olaraq əlifba və milli ədəbiyyatı da insanları qara cəhalətdən, istibdaddan xilas edən vasitə kimi qiymətləndirir. M. F. Axundov, H.Zərdabi, Ə. Ağaoğlu və digər maarifçi publisistlər tərəfindən inkişaf etdirilən azərbaycançılığın mühüm tərkib hissəslərindən biri olan dil məsələsini bu ideologiyanın komponenti kimi milli tərəqqi və təkamül ilə bağlayır. "Xüsusiyyəti-milliyənin" yeganə şüarı olan milli dili mühafizə etməyə çağıran ədib hər kəsin qarşısında böyük bir vəzifə qoyur:

"Xalq mühafizə etdiyi hökumətin dilini, yazısını təbii, öz dili, öz yazısı olmasını istər və bunu istəməkdə dünya qədər haqqı vardır...Hürriyyətimizi, istiqlalımızı candan istəyirsək, Azərbaycan dilinə, Azərbaycan milli ədəbiyyatına, Azərbaycan xalqına qiymət verməli, hörmət etməliyiz" (5, s.69).

Milli ədəbiyyatın və elmlərin tərəqqisinin əhəmiyyətini silahdan min kərə güclü təqdim edən Ömər Faiq bu məqalədə çox ciddi bir məsələni də dövrün aktual və əhəmiyyətli problemi kimi təqdim edir. Azərbaycan ziyalılarının uzun zaman uğrunda mübarizə apardıqları əlifba məsələsini də maariflənmənin, milliləşmənin əsas vasitələrindən biri kimi təqdim edir. Türkcənin yazı və mətbuat aləmində zəifliyini türkcənin özündə deyil, başına bəla etdiyi əlifbasında görür:

"...türkcəmiz danışıq və ahəngini olduğu kimi göstərməyə, yazmağa əsla yaramayan ərəb əlifbasını qəbul edəndən sonra öz varlığını, öz istiqlalını itirmiş və bu günə qədər ərəbliyə əsir olaraq həqiranə ömür sürmüşdür" (5, s.67).

Onun bu baxışları M.F.Axundovun əlifba islahatı haqqında nəzəri fikirlərinin davamı idi: "Vaxtdır ki, həqiqi, ictimai bir inqilab ilə dilimizi bügünkü yaramaz və çirkin əlifba əsirliyindən qurtarıb öz təbiətinə, öz istiqlalına uyğun bir əlifba qəbul edəlim" kimi tarixi yanaşmasını gələcək latın əlifbasına keçid ideyasına zəmin yaradan fikirlər kimi qiymətləndirmək olar. Ədibin əlifba məsələsinə dair bu görüşləri onun dövrünün maarifçi, islahatçı bir şəxsiyyət olduğunu bir daha təsdiqləyir. Ədibin bu fikirləri sonralar latın qrafikasına keçid və milli mətbuatın inkişafında da öz təsirini göstərdi.

Ömər Faiqin dövlət quruculuğu, suveren siyasət və milli maraqlar konsepsiyası da "Milliləşmək" yazısının ana xəttini təşkil edir:

"Bu günün, gələcəyin pozulmaz bir qanunu var: milliləşəmməyən, xüsusi mədəniyyət göstərəmməyən, xalqa doğru gedəmməyən idarələr... hökumətlər davam edəmməzlər. İstiqlalın möhkəm və davamını istəyənlər bu həqiqəti bilib ona görə çalışmalıdır. Bu çalışmaq, hər ziyalı azərbaycanlı üçün bir fəzilət isə Məclisi-Məbusanda əyləşən hörmətli xalq vəkilləri üçün bir borcdur, bir vəzifədir" (5, s.70).

Ədibə görə milliləşmə ilk növbədə dil və mədəniyyət üzərində qurulmalıdır. Dövlət xalqdan ayrı mövcud ola bilməz. O, milliləşməli, milli mədəniyyətə söykənməli və xalqa doğru yönəlməlidir. Əks halda davamlılıq mümkün deyil.

**Nəticə**

Ömər Faiqin bu fikirləri günümüzdə də aktuallığını saxlayır. Müasir Azərbaycan dövlətçiliyində milli kimliyin qorunması, müstəqilliyin möhkəmləndirilməsi, xalq-dövlət birliyinin gücləndirilməsi və mədəni irsin inkişafında özünü bir daha təsdiqləyir. Bütövlükdə, milli ideologiyanın yaradıcılarından biri olan Ömər Faiq Nemanzadə mətbu fəaliyyəti ilə milli kimlik şüurunun formalaşmasında və inkişafında böyük rol oynamışdır. Azərbaycançılıq ideologiyasının təməl prinsiplərini ortaya qoyanlardan biri kimi milləti maarifə, elmə, mədəniyyətə səsləmiş, azad sözün müdafiəçisi olmuş, cəsarətli və təndiqi yazıları ilə haqq, ədalət və həqiqət carçısı olmuşdur.

Ö.F.Nemanzadənin "Azərbaycan" qəzetindəki fəaliyyəti həm ideoloji, həm də ədəbi-publisistik baxımından da mühüm tarixi əhəmiyyət kəsb etmişdir. Ədibin millət, vətən, dil, milli kimlik, milli ədəbiyyat və mədəni dəyərlər mövzusunda qəzetin səhifələrində qaldırdığı ciddi problemlər bu günümüz üçün də aktuallıq kəsb edir.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT


1. Azərbaycan milli mətbuatının 150 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı. “Respublika” qəzeti. 25 aprel 2025.
2. “Azərbaycan” qəzetində parlament hesabatları və şərhlər (noyabr 1918-aprel 1920). Araşdırıb toplayanı, ərəb əlifbasından latın əlifbasına çevirəni, ön sözün müəllifi, lüğətin tərtibçisi Şirməmməd Hüseynov. II cild, Bakı, “Qanun” nəşriyyatı, 2016, 560 s.
3. “Azərbaycan” qəzeti: 1918-1920-ci illərdə nəşr olunmuş “Azərbaycan” qəzetinin tam külliyyatı 20 cilddə. VII Cild (aprel 1919) ADA Universitetinin təşəbbüsü və dəstəyi ilə nəşr edilir. Çaşıoğlu, 2023, 631 s
4. “Azərbaycan” qəzeti: 1918-1920-ci illərdə nəşr olunmuş “Azərbaycan” qəzetinin tam külliyyatı 20 cilddə. IX Cild (İyun 1919) ADA Universitetinin təşəbbüsü və dəstəyi ilə nəşr edilir. Bakı, Çaşıoğlu, 2023, 563 s.
5. Azərbaycan yazıları. Ömər Fair Nemanzadə. ADA Universitetinin təşəbbüsü və dəstəyi ilə nəşr edilir. Transliterasiya edərək nəşrə hazırlayanlar:M. Gəncəli, A. Ağaoğlu. Çaşıoğlu, 2023. 119 s.
6. Elçin. O işıq əsla sönməz. “Ədəbiyyat və incəsənət” qəzeti 11 noyabr 1983.
7. “Qardaşköməyi” dərgisi. Bakı, İpəkyolu nəşriyyatı, 2012.
8. Ömər Faiq Nemanzadə. Seçilmiş əsərləri.Bakı, Yazıçı, 1992. 530 s.
9. “Şərqi-rus” qəzeti, 7 yanvar 1903, N1.

# MÜNDƏRİCAT


**MÜASİR MEDİANIN ÇAĞIRIŞLARI**

**Qulu MƏHƏRRƏMLİ**
BİRİNCİ TÜRKOLOJİ QURULTAY – 100: ORTAQ ƏDƏBİ DİL MEDİA DİSKURSU KİMİ DÜNƏNDƏN BU GÜNƏ ............ 3

**Səbinə İZZƏTLİ**
YENİ MEDİA EKOSİSTEMİNDƏ PROBLEMDƏN HƏLLƏ KEÇİD: JURNALİSTİKADA YENİ YANAŞMA ............ 19

**QLOBALLAŞAN DÜNYADA İNFORMASİYA**

**Vüqar ƏLİYEV**
DÜNYA MEDİASINDA QƏRƏZLİ İNFORMASİYA SİYASƏTİ: SƏBƏBLƏR VƏ TƏSİRLƏR ............ 30

**Aynur NƏSİROVA**
VİZUAL SAXTAKARLIQ VƏ XƏBƏRİN MÖTƏBƏRLİYİ PROBLEMİ ............ 37

**Əli HACIYEV**
SOSİAL MEDİA ALTERNATİV XƏBƏR MƏNBƏYİ KİMİ ............ 48

**KÜTLƏVİ KOMMUNİKASİYA LANDŞAFTI: YENİ TENDENSİYALAR**

**Nargiza YUSUPOVA**
MƏTNİN KREOLİZASİYASI "Z" NƏSLİ ÜÇÜN YENİ VİZUAL KOMMUNİKASİYA FORMASI ............ 59

**Arzu İSAYEVA**
TELEJURNALİSTİKADA DATA ƏSASLI YANAŞMALAR VƏ VİZUAL TƏQDİMAT PROBLEMLƏRİ ............ 74

**Onur COŞKUN**
SİNEMADA METAMODERN SÖYLEMLERİN HERMENÖTİK OKUMASI: MODERNİZİM VE POSTMODERNİZİMİN DÖNÜŞÜMÜ ("*Don kişot'u öldüren adam*" *filmi əsasında*) ............ 88

**MÜASİR MEDİANIN PRİORİTET MÖVZULARI**

**Anar HƏSƏNOV**
AZƏRBAYCAN MÖVZUSUNUN RUSİYA KİV- də İŞIQLANDIRILMASININ TƏKAMÜLÜ (2000–2024) ........................................ 102

**MİLLİ MƏTBUAT TARİXİNƏ DAİR ARAŞDIRMALAR**

**Asif RÜSTƏMLİ**
SOVET REJİMİNİN İLK İLLƏRİNDƏ GİZLİ İSTİQLAL FƏDAİLƏRİNİN FƏALİYYƏTİ........................................ 121

**Aygün ƏZİMOVA**
ÖMƏR FAİQ NEMANZADƏ: MAARİFÇİLİKDƏN İSTİQLALA GEDƏN YOL..... 144

**MEDİA SAVADLILIĞI VƏ JURNALİSTİKA TƏHSİLİ**

**Nozima MURATOVA, Нигина ТУРГУНОВА**
ÖZBƏKISTAN İNFORMASİYA MƏKANINDA TƏNQİDİ KOMPETENSİYANIN İNKIŞAFINDA MEDİA TƏHSİLİNİN ROLU..................... 158

**MÜƏLLİFLƏR ÜÇÜN MƏLUMAT VƏ YADDAŞ ............................................ 184**

# СОДЕРЖАНИЕ


## ВЫЗОВЫ СОВРЕМЕННЫХ СРЕДСТВ МАССОВОЙ ИНФОРМАЦИИ

**Гулу МАГЕРРАМЛИ**
ПЕРВЫЙ ТУРКОЛОГИЧЕСКИЙ СЪЕЗД – 100: ОБЩИЙ ЛИТЕРАТУРНЫЙ ЯЗЫК КАК МЕДИА-ДИСКУРС ОТ ВЧЕРАШНЕГО ДНЯ ДО НАСТОЯЩЕГО..........3

**Сабина ИЗЗАТЛЫ**
СМЕНА ПАРАДИГМЫ ОТ ПРОБЛЕМ К РЕШЕНИЯМ В НОВОЙ МЕДИАЭКОСИСТЕМЕ: НОВЫЙ ПОДХОД В ЖУРНАЛИСТИКЕ..........19

## ИНФОРМАЦИЯ В ГЛОБАЛИЗИРУЮЩЕМСЯ МИРЕ

**Вугар АЛИЕВ**
ПРЕДВЗЯТАЯ ИНФОРМАЦИОННАЯ ПОЛИТИКА В МИРОВЫХ СМИ: ПРИЧИНЫ И ПОСЛЕДСТВИЯ..........30

**Айнур НАСИРОВА**
ВИЗУАЛЬНАЯ ФАЛЬСИФИКАЦИЯ И ПРОБЛЕМА ДОСТОВЕРНОСТЬ НОВОСТНОЙ ИНФОРМАЦИИ..........37

**Али ГАДЖИЕВ**
СОЦИАЛЬНЫЕ МЕДИА КАК АЛЬТЕРНАТИВНЫЙ ИСТОЧНИК НОВОСТЕЙ..........48

## СФЕРА МАССОВЫХ КОММУНИКАЦИЙ: НОВЫЕ ТЕНДЕНЦИИ

**Наргиза ЮСУПОВА**
КРЕОЛИЗАЦИЯ ТЕКСТА КАК НОВЫЙ ВИД ВИЗУАЛЬНОЙ КОММУНИКАЦИИ ПОКОЛЕНИЯ “Z”..........59

**Арзу ИСАЕВА**
ДАТА-ОРИЕНТИРОВАННЫЕ ПОДХОДЫ В ТЕЛЕЖУРНАЛИСТИКЕ И ПРОБЛЕМЫ ВИЗУАЛЬНОЙ ПРЕЗЕНТАЦИИ..........74

**Онур КОШКУН**
ГЕРМЕНЕВТИЧЕСКОЕ ПРОЧТЕНИЕ МЕТАМОДЕРНИСТСКИХ ДИСКУРСОВ В КИНО: ТРАНСФОРМАЦИЯ МОДЕРНИЗМА И ПОСТМОДЕРНИЗМА (ФИЛЬМ «ЧЕЛОВЕК, УБИВШИЙ ДОН КИХОТА»)........88

**ПРИОРИТЕТНЫЕ ТЕМЫ СОВРЕМЕННЫХ СРЕДСТВ МАССОВОЙ ИНФОРМАЦИИ**

**Анар ГАСАНОВ**
ЭВОЛЮЦИЯ ОСВЕЩЕНИЯ ТЕМЫ АЗЕРБАЙДЖАНА В РОССИЙСКИХ СМИ (2000–2024)........102

**ИССЛЕДОВАНИЕ ИСТОРИИ НАЦИОНАЛЬНОЙ ПРЕССЫ**

**Асиф РУСТЕМЛИ**
ДЕЯТЕЛЬНОСТЬ ТАЙНЫХ БОРЦОВ ЗА НЕЗАВИСИМОСТЬ В ПЕРВЫЕ ГОДЫ СОВЕТСКОГО РЕЖИМА........121

**Айгюн АЗИМОВА**
ОМЕР ФАИГ НЕМАНЗАДЕ: ПУТЬ ОТ ПРОСВЕТИТЕЛЬСТВА К НЕЗАВИСИМОСТИ........144

**МЕДИАГРАММАТИКА И ЖУРНАЛИСТИЧЕСКОЕ ОБРАЗОВАНИЕ**

**Нозима МУРАТОВА, Нигина ТУРГУНОВА**
РОЛЬ МЕДИАОБРАЗОВАНИЯ В РАЗВИТИИ КРИТИЧЕСКОЙ КОМПЕТЕНТНОСТИ В ИНФОРМАЦИОННОМ ПРОСТРАНСТВЕ УЗБЕКИСТАНА........158

**ИНФОРМАЦИЯ И ПАМЯТЬ ДЛЯ АВТОРОВ ........184**

# CONTENTS


## CHALLENGES OF MODERN MEDIA

**Gulu MAHARRAMLI**
FIRST TURCOLOGY CONGRESS – 100: COMMON LITERARY LANGUAGE AS MEDIA DISCOURSE FROM YESTERDAY TO THE PRESENT........................................3

**Sabina IZZATLİ**
PARADIGM SHIFT FROM PROBLEMS TO SOLUTIONS IN THE NEW MEDIA ECOSYSTEM: A NEW APPROACH TO JOURNALISM..................19

## INFORMATION IN A GLOBALIZING WORLD

**Vugar Aliyev**
BIASED INFORMATION POLICY IN THE WORLD MEDIA: CAUSES AND EFFECTS........................................30

**Aynur NASIROVA**
VİSUAL FORGERY AND THE PROBLEM OF CREDİBİLİTY OF NEWS............37

**Ali HAJİYEV**
SOCIAL MEDIA AS AN ALTERNATIVE NEWS SOURCE.......................................48

## MASS COMMUNICATION LANDSCAPE: NEW TRENDS

**Nargiza YUSUPOVA**
TEXT CREOLIZATION IS A NEW FORM OF VISUAL COMMUNICATION FOR GENERATION “Z”..............................................59

**Arzu Isayeva**
DATA-DRIVEN APPROACHES IN TELEJOURNALISM AND PROBLEMS OF VISUAL PRESENTATION..................................................74

**Onur COSKUN**
A HERMENEUTIC READING OF METAMODERNISM DISCOURSES IN CINEMA: THE TRANSFORMATION OF MODERNISM AND POSTMODERNISM (THE FILM "THE MAN WHO KILLED DON QUIXOTE")........................................88

## PRIORITY TOPICS OF MODERN MEDIA

**Anar GASANOV**
EVOLUTION OF AZERBAIJAN'S COVERAGE IN RUSSIAN MEDIA
2000–2024)........................................................................102

## RESEARCH ON THE HISTORY OF THE NATIONAL PRESS

**Asif RUSTAMLI**
ACTIVITIES OF SECRET INDEPENDENCE FIGHTERS IN THE EARLY
YEARS OF THE SOVIET REGIME ..............................................121

**Aygun AZIMOVA**
OMER FAIGH NEMANZADE: THE PATH FROM ENLIGHTENMENT
TO INDEPENDENCE ...............................................................144

## MEDIA LITERACY AND JOURNALISM EDUCATION

**Nozima MURATOVA , Nigina TURGUNOVA**
THE ROLE OF MEDIA EDUCATION IN UZBEKISTAN IN DEVELOPING
CRITICAL COMPETENCE IN THE INFORMATION SPACE.....................158

**INFORMATION AND MEMORY FOR AUTHORS ................................ 184**

**MEDİA PROBLEMLƏRİ elmi-nəzəri və analitik jurnal**

Rüblük nəşr: 2026 / №1 (2)

**Təsisçi:**

Bakı Dövlət Universiteti

**Redaksiyanın ünvanı:**

Azerbaycan Respublikası, Bakı şəhəri, Yasamal rayonu Zahid Xəlilov küç.,33
Tel.: (+994) 50-213-25-77

Azerbaycan Respublikasının "Media haqqında" qanununa müvafiq şəkildə təsis edilmişdir

**PROBLEMS OF MEDIA scientific-theoretical and analytical journal**

Quarterly: 2026 / №1 (2)

**Publisher:**

Baku State University

**Editorial title:**

Republic of Azerbaijan, Baku, Yasamal district, Zahid Khalilov str.33
Phone: (+994) 50-213-25-77

Established in accordance with the Law of the Republic of Azerbaijan "On Mass Media"

Çapa imzalanıb: 27.04.2026
Format 70x100 $^{1}/_{16}$. Həcmi: 12,5 ç.v.
Tiraj: 300 nüsxə

BDU Nəşr Evi
AZ 1148, Bakı ş., ak. Z.Xəlilov küçəsi, 33.
e-mail:bduneshrevi@bsu.edu.az
**www.bsu.edu.az**

bsu.edu.az
(+994 12) 430 32 45
info@bsu.edu.az
Ünvan: Bakı şəhəri, AZ 1148,
ak.Zahid Xəlilov küç., 33